# *“Kənd təsərrüfatı heyvanlarının mövsümi xarakterli qan-parazitar xəstəlikləri”*



- Bu xəstəliklər mövsümi  xarakter daşıyır və təbii iqlim şəraitdən asılı olaraq mart ayının sonlarından oktyabrin axırına qədər  davam edir. Qan-parazitar xəstəlikləri kənd təsərrüfatı heyvanlarının anemiya, lixoradka, atoniya, mədə-bağırsaq sisteminin pozğunluğu ilə xarakterizə edilən, iti və xroniki formada büruzə verən ibtidai parazitlər tərəfindən törədilən invaziyalardır. Respublikanın müxtəlif cografi bölgələrində kənd təsərrüfatı heyvanlarında geniş yayılmış, ağır formada təzahür edən və yüksək ölümlə nəticələnən – 5 tip teyleroz, pirop azmoz, fransaelloz, anaplazmoz, babeziozqeyd edilməkdədir. Xəstəlik keçiriciləri ixodidae fəsiləsinə aid (otlaq gənələri) gənələrdir.

Xəstəlik törədiciləri gənələrin bədənində - toxumalarda, hemolifada və yumurtada heyvan orqanizmində əsasən qırmızı qan hüceyrələrində lokalizasiya edir. Heyvanlarda əvvəlcə daxili orqanlarda, daha sonra periferk qanda çoxalır. Havanın tempreturu yüksəldikcə torpaqda yatmış gənələr otlaqlarda aktiv həyat tərzinə keçir, heyvanlara yapışaraq qan sovurarkən parazitləri heyvanın qanına ötürürlər. Eləcə də gənələr xəstə heyvandan törədicini udub xəstəliyin yayılmasına səbəb olurlar. Ekoloji-coğrafi bölgələrində qan-parazitar xəstələrinə yoluxma ilin mövsümindən asılı olaraq dəyişir. Belə ki, düzənlik ərazilərdə yay fəslinin ortalarında intensiv müşahidə edilir.



**Qan paraziti törədən gənələr**

Xəstəliklə yoluxmanın birinci yaz aylarında (aprel,may), ikinci piki isə yay aylarında (iyun iyul), nadir hallarda isə qış aylarında (dekabr yanvar) aylarında müşahidə edilir.Daha çox rütübətli bölgələrdə qeyd edilən bu xəstəlikləri artıq düzənlik əraziləri əhatə edən rayonlarda da intesiv qeyd edilməkdədir. Xəstəlik aşağıdakı əlamətlər ilə xarakterizə edilir.

1.yüksək hərarət (41,0-42,0) dərəcə

törədicilərinin növündən asılı olaraq xəstəliyin inkubasiya

2.Limfa vəzilərinin şişkinliyi

3. selikli qışaların saralması

4.sidikdə qan

5.Zülal kompenentləri6.qanda eritrositlərin 3 dəfə azalması
7.hemoqlobulinin aşağı düşməsi

8.quru öskürək
9.burunda irinli selik ifrazı
10. tüklərin pirpizləşməsi
11. diri çəkinin azalması
12. balasalma halları da müşahidə edilir

Vaxtında müalicə aparılmadıqda tələfat baş verir, xüsusi ilə cavan heyvanlarda 60-80% itkiyə səbəb olur. Xəstəlik dövrü 6-30 gün müddətində davam edə bilər. Qeyri düzgün dioqnoz, vaxtında aparılmayan müalicə 6-7 gün ərzində heyvanların ölmünə səbəb olur.

Xəstəliyin kütləvi hala keçməməsi üçün təcili xəstə heyvanlar təcrid olunub, kimyəvi preparatlardan müalicə olunmalı proflaktik tədbirlər aparılmalıdır. Xəstəliyin müalicəsində Butalex, Bupajekt, 5%-li Bupa Smart preparatları parazitlərə qarşı yüksək effektivlik göstərir.

***Butalex kimyəvi pereparatı***




***Bupaject İnj.***



# Diqqətinizə görə minnətdarıq!